**UOT 021**

*DOI: 10.25045/ASUCAAI.2025.10*

# ELEKTRON KATALOQ YÜKSƏK İNFORMASİYA TEXNOLOGİYALARININ NƏTİCƏSİ KİMİ

**(Akademik kitabxanaların iş təcrübəsində)**

**Rəşad Qardaşov Əhmədxan oğlu**
Tarix üzrə fəlsəfə doktoru, dosenti
Bakı Dövlət Universiteti
Bakı, Azərbaycan
qardashov@inbox.ru

**Xülasə**

Bu tədqiqat informasiya texnologiyalarının kitabxana sahəsinə inteqrasiyasını və elektron kataloqların əhəmiyyətini araşdırır. Müəllif yüksək informasiya texnologiyalarının kitabxana sistemlərində oynadığı rolu, elektron kataloqun struktur komponentlərini və onun kitabxana idarəçiliyindəki yerini təhlil edir. Tədqiqatın aktuallığı informasiya cəmiyyətinin inkişafı fonunda kitabxanaların müasir dövrə uyğunlaşdırılması və elektron kataloqlaşdırmanın geniş tətbiqi ilə əlaqədardır. Elektron kataloqların kitabxana proseslərinin avtomatlaşdırılmasına verdiyi töhfələr, rəqəmsal resursların idarə olunması və onlayn xidmətlərin inkişafı əsas tədqiqat obyektləridir. Müəllif tədqiqatda şəxsən iştirak edərək kitabxana informasiya sistemlərinin avtomatlaşdırılmasını və bu sahədə tətbiq edilən yüksək informasiya texnologiyalarını dəyərləndirib. Eyni zamanda, burada elektron kataloqun hüquqi-normativ çərçivələri və metodiki prinsipləri də araşdırılıb. Tədqiqatın nəticələri kitabxana işində informasiya texnologiyalarının rolunu artırmaq, müasir kitabxana proseslərini təkmilləşdirmək və elektron kataloqlaşdırmanı inkişaf etdirmək üçün nəzəri və praktik əsaslar təqdim edir.

**Rashad Qardashov**

## Electronic Catalog as a Result of High Information Technologies

**(In the Experience of Academic Libraries)**

**Abstract**

This research explores the integration of information technologies into the library sector and the significance of electronic catalogs. The author analyzes the role of high information technologies in library systems, the structural components of electronic catalogs, and their place in library management. The relevance of the study is linked to the adaptation of libraries to contemporary demands and the extensive adoption of electronic cataloging in the context of the development of the information society.The main research objects include the contributions of electronic catalogs to the automation of library processes, the management of digital resources, and the development of online services. The author personally participated in the research by evaluating the automation of library information systems and the application of high information technologies in this field. Additionally, the study examines the legal and normative frameworks and methodological principles of electronic catalogs. The results of the research provide theoretical and practical foundations for enhancing the role of information technologies in library work, improving modern library processes, and developing electronic cataloging.

**Рашад Гардашов**

# Электронный каталог как результат высоких информационных технологий (Из опыта работы академических библиотек)

**Аннотация**

В данном исследовании рассматривается интеграция информационных технологий в библиотечную сферу и значимость электронных каталогов. Автор анализирует роль высоких информационных технологий в библиотечных системах, структурные компоненты электронного каталога и его место в управлении библиотеками. Актуальность исследования связана с необходимостью адаптации библиотек к современным требованиям и широким внедрением электронного каталогизирования в условиях развития информационного общества. Основные объекты исследования включают вклад электронных каталогов в автоматизацию библиотечных процессов, управление цифровыми ресурсами и развитие онлайн-сервисов. Автор лично принимал участие в исследовании, оценивая автоматизацию библиотечно-информационных систем и применение высоких информационных технологий в этой области. Кроме того, в работе изучены правовые и нормативные основы, а также методические принципы электронных каталогов. Результаты исследования предоставляют теоретическую и практическую основу для повышения роли информационных технологий в библиотечной деятельности, совершенствования современных библиотечных процессов и развития электронного каталогизирования.

**Açar sözlər:** Elektron kataloq, informasiya texnologiyaları, kitabxananın avtomatlaşdırılması, rəqəmsal kitabxana, süni intellekt, elektron informasiya resursları, Avtomatlaşdırılmış kitabxana informasiya sistemləri (AKİS).

**Keywords:** Electronic Catalog, Information Technologies, Library Automation, Digital Library, Artificial Intelligence, Electronic Information Resources, Automated Library Information Systems (ALIS).

**Ключевые слова:** Электронный каталог, информационные технологии, автоматизация библиотек, цифровая библиотека, искусственный интеллект, электронные информационные ресурсы, Автоматизированные библиотечно-информационные системы (АБИС).

İnformasiya texnologiyası sahəsində peşəkar mütəxəssislərin hazırlanması informasiya fəaliyyətini nəzəri cəhətdən öyrənmək və informasiya texnologoyalarının ictimai həyata tətbiqindən birbaşa asılıdır. Məlum olduğu kimi informasiya cəmiyyətinin əsasında informasiya texnologiyaları durur.İnformasiya texnologiyaları dedikdə bir-birilə qarşılıqlı əlaqədə  olan proseslərin proseslərin məcmusu eləcədə fəaliyyət mexanizmini nizama salan qaydalar və sənədlər sistemi başa düşülür. İnformasiya texnologiyalarının əsas məqsədi informasiya məhsulunun keyfiyyətini yüksəltmək,onun istehsal müddətini azaltmaq və maya dəyərini aşağı salmaqdan ibarətdir.İnformasiya fəaliyyəti tarixi inkişaf prosesində üzə çıxan insan fəaliyyətinin xüsusi növüdür. Başqa bir tərifdən belə qənaətə gəlmək olar ki, informasiya fəaliyyəti – cəmiyyətin və müxtəlif təşkilatların informasiya ehtiyaclarını ödəmək məqsədilə informasiyanın istehsalını və istehlakını təmin edən kompleks prosesdir. Bu fəaliyyət həm ənənəvi, həm də rəqəmsal mühitdə həyata keçirilərək elmi araşdırmalardan tutmuş

idarəetmə, təhsil, kitabxana işi və media sahələrinə qədər geniş bir spektri əhatə edir [İsmayılov, 2009].

**Məsələnin qoyuluşu.** "*İnformasiya informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunu*"nda informasiyanın yaranma tarixindən təsir dairələrinə qədər olan istiqamətləri şərh olunmuşdur [Azərbaycan Respublikasının 3 aprel 1998-ci il Qanunu]. Burada informasiya prosesləri, informasiya texnologiyaları, informasiya sistemləri və informasiya ehtiyatları anlayışları geniş şəkildə izah olunmuşdur.

Yüksək informasiya texnologiyaları müasir dövrdə informasiya sistemlərinin və texnologiyalarının inkişafının ən qabaqcıl forma və məzmunu əhatə edir.Komputerlər, şəbəkələr, proqram təminatı, məlumat bazaları və süni intellekt kimi yüksək səviyyəli texnologiyaları özündə birləşdirən bu sferanı böyük bir şəbəkə kimi qəbul etmək olar.Bu texnologiyalar cəmiyyətin əksər sahələrində:təhsil sahəsində, səhiyyədə, nəqliyyatda və digər bir çox sektorda tətbiq edilir və yeni imkanlar yaradır. Yüksək informasiya texnologiyalarının əhatə etdiyi sahələrdən biri də süni intellektdir.

Süni intellekt avtomatlaşdırılmış sistemlərin insan səviyyəsində düşünmə, öyrənmə və qərar qəbul etmə qabiliyyətidir. Süni intellekt, maşınların insan kimi düşünmə və öyrənmə qabiliyyətini inkişaf etdirmək üçün istifadə olunan texnologiyadır. Bu texnologiya, böyük məlumat dəstləri ilə işləyərək daha ağıllı və sürətli qərarlar almağa kömək edir. Müasir dövrdə bütün fəaliyyət sahələrini informasiya kommunikasiya texnologiyalarsiz təsəvvür etmək olmaz. O cümlədən təhsil sahəsinə güclü inteqrasiya və müdaxilə edən süni intelekt fərdi tədris metodlarını inkişaf etdirir və şagirdlərin, tələbələrin güclü və zəif tərəflərini müəyyən etmək üçün istifadə olunur.

Azərbaycan Respublikasında yeni cəmiyyət quruculuğu, milli və dünyəvi dövlətçilik ənənələrinin inkişafı və formalaşması prosesi müxtəlif sahələrdə mühüm dəyişikliklərə səbəb olmuşdur. Bu proses ideoloji əsasların möhkəmləndirilməsini, təhsil və tərbiyə sisteminin təkmilləşdirilməsini, informasiya və mədəniyyət sahələrinin inkişafını, eləcə də kitabxanaların bilik və maarifləndirmə mərkəzi kimi rolunun gücləndirilməsini zəruri etmişdir. Nəticədə, bu institutların qarşısında ictimai şüurun formalaşdırılması, elmi biliklərin yayılması, mədəni irsin qorunması və informasiya cəmiyyətinin inkişafına töhfə vermək kimi mühüm vəzifələr qoyulmuşdur.

Kitabxana işi tarixən cəmiyyətin informasiya və mədəniyyət strukturunun əsas elementi olmuş və həmişə cəmiyyət üzvlərinin informasiya tələbatını ödəməyə xidmət etmişdir. Milli mədəniyyət və təhsilin ayrılmaz hissəsi olan Respublika kitabxanalarının inkişafı dövlətin prioritet istiqamətlərindən biri olmuş, bu sahədə mühüm hüquqi-normativ sənədlər və dövlət tədbirlər planları qəbul edilmişdir. Azərbaycan kitabxanaları sənəd-informasiya resurslarının qorunması və kütləvi istifadəsinin təşkilində əsas rol oynayır. Qloballaşan informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq onların maddi-texniki və texnoloji bazası daim yenilənir və təkmilləşir. Xüsusilə müstəqillik dövründə kitabxana işinin inkişafına yönəlik mühüm qanun və dövlət proqramları qəbul edilmişdir [Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2007-ci il Sərəncamı].

2008-2013-cü illər üzrə kitabxanaların inkişafına dair dövlət proqramının hazırlanması bu sahənin strateji əhəmiyyətini vurğulamış və onun əsas inkişaf istiqamətlərini müəyyənləşdirmişdir. Proqram çərçivəsində kitabxana infrastrukturunun modernləşdirilməsi, maddi-texniki bazanın gücləndirilməsi, rəqəmsal texnologiyaların tətbiqi, informasiya resurslarına geniş çıxış imkanlarının

yaradılması, eləcə də kitabxana xidməti səviyyəsinin yüksəldilməsi kimi vacib məsələlər diqqət mərkəzində olmuşdur. Bu proqram kitabxanaların cəmiyyətin elmi, mədəni və informasiya ehtiyaclarını daha səmərəli şəkildə qarşılamaq üçün müasir tələblərə uyğun inkişafını təmin etmişdir (Azərbaycan Respublikası Prezidentinin 20 aprel 2007-ci il Sərəncamı). 2008-ci ildə təsdiq edilmiş dövlət proqramlarından biri kitabxanalarda virtual elektron kataloq sisteminin yaradılmasını nəzərdə tuturdu. Elektron kataloqlaşdırma həm oxucuların onlayn informasiya axtarışını asanlaşdırır, həm də kitabxana proseslərinin avtomatlaşdırılmasına töhfə verir. Hazırda ölkənin iri kitabxanalarında bir neçə avtomatlaşdırılmış kitabxana-informasiya sistemi (AKİS) əsasında elektron kataloqlar mövcuddur. Müasir kitabxanalar sürətlə inkişaf edən informasiya texnologiyalarını tətbiq edərək elektron kataloqu kitabxana fəaliyyətinin ayrılmaz hissəsinə çevirir. Mürəkkəb texnoloji proses olduğundan bu sahədə yeni informasiya texnologiyalarının tətbiqi labüddür [Qardaşov, 2019].

Kitabxana-informasiya sistemlərinin fəaliyyət göstərməsində avtomatlaşdırmanın nüvəsi hesab edilən "elektron kataloq" yeni informasiya texnologiyalarının başlıca tədqiqat obyekti hesab edilir. Bildiyimiz kimi elektron kataloq (EK) avtomatlaşdırmanın müasir texniki imkanları əsasında oxucuları kitabxana fondlarının tərkibi və məzmunu haqqında məlumatlandırması kitabxanaları informasiya resurslarının istifadəsinin səmərəliliyinin bilavasitə keyfiyyətindən asılıdır. Qeyd edək ki,elektron kataloq kitabxananı qlobal informasiya şəbəkələrində təmsil edir və kitabxana aiditoriyasını uzaq istifadəçilərin hesabına xeyli genişləndirməyə imkan verir. Elektron kataloqu və ya digər dərəcədə bütün başlıca texnoloji kitabxana proseslərinə cəlb olunaraq,onunla işləməyi bacarmaq həmçinin,onun informasiya bazasının yaradıcılarına və kitabxana texnoloqlarına bütün peşəkar və uzaq istifadəçilərinə geniş imkanlar verir.

Elektron kataloqun struktur komponentlərini tədqiq edərkən müasir mərhələdə ən son konsepsiyalara uyğun olaraq aşağıdakı sxem üzrə müəyyənləşdirmək olar.

**1. Məqsəd:** Elektron kataloq yaratmağın əsas məqsədi cəmiyyətin informasiya tələbatını ödəmək,kitabxana proseslərinin avtomatlaşdırılmasını təmin etmək, dolğun, relevant, fasiləsiz informasiya təminatını ödəməkdir.

**2. Subyekt:** Elektron kataloqlar, avtomatlaşma prosesləri, şöbənin ayrıca əməkdaşları obyektin məhsuldar məzmununun subyektiv fəaliyyətinin effektliyini şərtləndirir,onun səmərəli koordinatlarını istiqamətləndirir. Komponent quruluşunun subyekt bölməsini aşağıdakı alt fazalarla təsvir etmək olar;

1.Subyektin fəaliyyət mexanizminin ünsürlərinin yanaşması tərzi;

2.Subyektin obyekt münasibətində qarşılıqlı paradiqmasının aydın olması;

3.Subyektin mənəvi-psixoloji və intellektual hazırlığı

**3. Obyekt**: Ayrıca bir kitabxanavə ya lokal əhəmiyyətə malik olan,real vaxt rejimində işləyən maşınla oxunan kataloq

**4. Proseslər**: Yazıların maşınla oxunan formaya çevrilməsi,mümkün variantlar və texnoloji üsullar,həmçinin avtomatlaşmış kitabxana informasiya prosesləri buraya aiddir. Elektron kataloqun magistralını təyin edən və tamamlayan komponentlərdən biri də proseslərdir. Proseslər real proseslər və prespektiv proseslər olaraq sistemləşdirilir.

**5. Vasitələr**: Buraya elektron kataloqda texniki təminat, bütün texniki konfiqurasiyalar həmçinin kadr təminatı daxildir.

**6. Nəticələr:** Nəticə etibarı ilə elektron kataloqun pasport identifikasiyasının əsas marşrutu,əhatəsi,coğrafi arealı üzrə ümumiləşdirilir [Qardaşov, 2019].

Kitabxanalarda elektron kataloqun tətbiqi kitabxana proseslərinin avtomatlaşdırılması müxtəlif istiqamətlərdən öyrənilir və tədqiq edilir.Yüksək informasiya texnologiyalarının nəticəsi hesab edilən süni intellekt və onun altfazası (kitabxana prpsesləri baxımından) olan elektron kataloq modern kitabxananın qarşısında 4 əsas prioritet istiqaməti birləşdirir:

**1. Kitabxanalarda onlayn xidmətin təşkili**: Rəqəmsal texnologiyalar müasir insanın həyatının bütün sahə lərini əhatə edir. Onların təsiri altında sosial-mədəni qurumlarda, o cümlədən kitabxanalarda ciddi dəyişiklik baş verir. Müasir texnoloji həllər kitabxana məkanının təşkili prinsiplərini, informasiya-kitab- xana fəaliyyətinin forma və üsullarını, kitabxana fondlarının komplektləşdirilməsi sistemini kökündən dəyişir. Müasir informasiya texnologiyalarının və müxtəlif növ məlumatların əldə edilməsi, emalı, ötürülməsi və toplanması vasitələrinin inkişafındakı keyfiyyət dəyişiklikləri informasiya ehtiyatlarının yaradılması, onların təşkili, vasitələri və üsulları problemlərinə yeni yanaşmaların və həll yollarının axtarışı zərurətinə səbəb olmuşdur. Kitabxanalarda onlayn xidmətin təşkili aşaöıda göstərilən elektron resurslarla həyata keçirilir:

- kitablardan, jurnallardan, dissertasiyalardan fərdi fəsillər və məqalələr;
- verilənlər bazalarından məlumat materialları;
- mikroformalar;
- audio sənədlər [Rzayeva və Xələfova, 2022].

**2. Elektron informasiya resurslarının təsnifatı**: Elektron informasiya ehtiyatları bilavasitə kompüter texnologiyalarının inkişafından asılı olaraq təkamül yolu keçmişdir. İlk elektron informasiya ehtiyatları mətn tipli olub oflayn istifadə olunurdu. İlk elektron informasiya ehtiyatları indiki ilə müqayisədə böyük fiziki ölçülərə malik, tutumu az olan maqnit informasiya daşıyıcılarında saxlanılırdı.Üçüncü nəsil kompüterlərin istehsalından başlayaraq və müvafiq proqram təminatının inkişafı ilə tədricən səs, qrafiki, video və siqnalların elektron ehtiyatları yaradıldı. Bu gün bütün növ informasiya ehtiyatları elektron formada emal və mühafizə oluna bilir. Elektron informasiya ehtiyatları artıq onlayn istifadə olunur və daha etibarlı, böyük informasiya tutumuna malik, kiçik ölçülü, mobil yaddaş qurğularında və şəbəkədə saxlanıla bilir, həmçinin monocildli, toplu və daydcest nəşrlər kimi təsnifləşdirilir. Elektron nəşrləri dövriliyinə görə dövri, qeyri-dövri, seriyalı, davamedən və yeniləşdirilən elektron nəşrlər kimi qruplaşdırmaq olar [Hüseynova, 2019].

**3. Rəqəmsal kitabxana:** Rəqəmsal kitabxana – rəqəmsal mənbələrin toplanaraq əlçatan edildiyi, müasir texnologiyalar əsasında istifadəçilərə informasiya xidməti göstərən və elmi-mədəni biliklərin yayılmasını təmin edən dinamik bir platformadır [İsmayılov və Xudiyeva, 2022].

**4. Elektron ehtiyatların idarə edilməsini belə qruplaşdırmaq olar:** Lazım olduqda sənədləri asanlıqla tapmaq;Geniş bir sahədə rəqabət apara bilmək;İnformasiya texnologiyalarından daha səmərəli istifadə etmək; Korporativ məlumatların ən effektiv şəkildə idarə edilməsi və istifadə edilməsi;Fərdlərdən asılılığı aradan qaldırıb işi institutsionallaşdırmaq, Sənəd proseslərində keyfiyyət,etibarlılıq və davamlılığın təmin edilməsi [Rzayeva və Xələfova, 2022].

**Nəticə olaraq** elektron kataloqun kitabxanalar üçün əhəmiyyətini belə qruplaşdırmaq olar:

- Qloballaşan informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq Respublika kitabxanalarının hüquqi, maddi-texniki və texnoloji bazasının qlobal mühitə inteqrasiyasını təmin etmək:

- Kitabxanaların fəaliyyətində günbəgün inkişaf edən yeni informasiya texnologiyaları,o cümlədən elektron kataloqlaşdırmanı öyrənmək:
- Mürəkkəb texniki-texnoloji kompleks olan Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemlərinin elektron kataloqun təşkilində yerini və rolunu müəyyənləşdirmək:
- Elektron kataloqlaşdırmanın hüquqi normativ bazasının əhəmiyyətini müəyyənləşdirmək:
- Elektron kataloqun yaradılmasının metodiki prinsiplərini müəyyənləşdirmək.

**Ədəbiyyat siyahısı:**

1. *Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı* (20 aprel 2007-ci il). Əldə edilib https://e-qanun.az/framework/13033 (21.02.2025)
2. *Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı* (6 oktyabr 2008-ci il). Əldə edilib https://e-qanun.az/framework/15493 (21.02.2025)
3. Hüseynova, Ş. (2019). *Elektron informasiya axtarış sistemləri* (Dərs vəsaiti). Bakı: Avropa nəşriyyatı.
4. İsmayılov, N., & Xudiyeva, V. (2022). *Rəqəmsal bilik və tədqiqat bacarıqları*. Bakı: Füyüzat.
5. İsmayılov, X. (2009). *Kitabxana-informasiya texnologiyaları* (Dərs vəsaiti). Bakı: Nurlar nəşriyyatı.
6. *İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının qanunu* (3 aprel 1998-ci il). Əldə edilib https://e-qanun.az/framework/3525 (21.02.2025)
7. *Kitabxana işi haqqında Azərbaycan Respublikasının qanunu* (29 dekabr 1999-cu il). Əldə edilib https://e-qanun.az/framework/5041 (21.02.2025)
8. Qardaşov, R. (2019). *Elektron kataloq* (Dərs vəsaiti). Bakı: Mütərcim nəşriyyatı.
9. Rzayeva, Z., & Xələfova, S. (2022). *Elektron ehtiyatların saxlanması və axtarışı* (Dərs vəsaiti). Bakı: Mütərcim.